

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# Şərq qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 57 (21.467)

31 mart 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin yaradılmasının 70 illik yubileyi qeyd olunmuşdur

***Martın 30-da Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin yaradılmasının 70 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilmişdir.***

Əvvəlcə nazirliyin əməkdaşları ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstələri düzmüş, Heydər Əliyev Muzeyini ziyarət etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini Mirhəşim Seyidov nazirliyin yaradılmasının 70 illik yubileyi münasibətilə kollektivi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun adından təbrik edərək bildirmişdir ki, Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin 30 mart 1946-cı il tarixli qərarına əsasən muxtar respublikada Kənd Təsərrüfatı Nazirliyi yaradılmışdır. Ölkəmizdə aqrar sahənin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Hələ ötən əsrin 70-80-ci illərində ümummilli liderimizin rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan qısa müddətdə kənd təsərrüfatının inkişaf göstəricilərinə görə ittifaq respublikaları sırasında qabaqcıl yerlərdən birini tutmuşdur. Lakin müstəqilliyin ilk illərində ölkədə baş verən özbaşınalıq nəticəsində aqrar sahədə yaradılan infrastruktur tamamilə dağıdılmışdır. Xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gələn ulu öndərin rəhbərliyi ilə kənd təsərrüfatında kompleks islahatlar aparılmış, qanunvericilik bazası formalaşdırılmış, nəticədə, kənd təsərrüfatı yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu siyasətin ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində kənd təsərrüfatında məhsul istehsalı stimullaşdırılmış, rəqabət qabiliyyəti artırılmışdır. Belə ki, məhsul istehsalçılarının torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilməsi, əkin sahələrinin hər hektarının becərilməsi üçün torpaq mülkiyyətçilərinə istifadə olunan gübrələrin 70 faizinin pulsuz verilməsi, satılan texnikaların və suvarma qurğularının dəyərinə 40 faiz güzəştin tətbiq olunması, toxumçuluq və tingçilik təsərrüfatlarına subsidiyaların ödənilməsi, yanacaq-sürtkü materiallarına görə verilən yardımların 25 faiz artırılması kənd təsərrüfatı ilə məşğul olan sahibkarlara göstərilən mühüm dövlət dəstəyidir.



Qeyd olunmuşdur ki, bu gün kənd təsərrüfatı muxtar respublika iqtisadiyyatının aparıcı sahələrindəndir. Muxtar respublika əhalisinin əksər hissəsinin kənddə yaşaması və aqrar sektorda çalışması bu sahənin daim diqqət mərkəzində olmasını şərtləndirmişdir. Təsadüfi deyil ki, Azərbaycanda ilk dəfə olaraq aqrar islahatların aparılmasına ümummilli liderimizin rəhbərliyi altında məhz Naxçıvanda başlanılmış, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlər formalaşdırılmışdır. Ulu öndər tərəfindən əsası qoyulan inkişaf strategiyasının ən layiqli davamçılarından olan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə muxtar respublikada aqrar islahatların uğurla başa çatdırılması hər il kənd təsərrüfatı məhsullarının istehsal həcmində dinamik artımın əldə edilməsinə səbəb olmuşdur. Bu sahədə inkişafın təmin olunmasında dövlət proqramlarının icrası da mühüm rol oynamışdır. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə bağlı təsdiq olunmuş dövlət proqramları, eləcə də əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair, kartofçuluğun, meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı dövlət proqramları kənd təsərrüfatının inkişafı ilə yanaşı, kəndlərin simasının da dəyişməsinə səbəb olmuşdur.

Aqrar sahənin inkişafı kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan müəssisələrin sayını artırmış, yeni soyuducu anbarlar, istixana kompleksləri fəaliyyətə başlamışdır. Bu sahənin inkişafına göstərilən qayğı təkcə məhsuldarlığın artırılması ilə məhdudlaşmamış, kənd təsərrüfatının idarə olunması ilə məşğul olan orqanların da fəaliyyəti diqqətdən kənarda qalmamışdır. Belə ki, Kənd Təsərrüfatı Nazirliyinin inzibati binası əsaslı şəkildə yenidən qurularaq müasir avadanlıqlarla təchiz olunmuş, nazirlik əməkdaşları müxtəlif fəxri ad, medal və nişanlarla təltif edilmişlər. Bütün bu qeyd olunanlar bir daha göstərir ki, muxtar respublikanın aqrar sektoru hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşdur. Bu qayğıya cavab olaraq isə kənd təsərrüfatı işçiləri Ali Məclis Sədrinin qarşıya qoyduğu vəzifələrin layiqincə yerinə yetirilməsinə çalışmalı, bol məhsul istehsalına nail olmalıdırlar.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev tədbirdə çıxış edərək demişdir ki, ulu öndərimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən mühüm tarixi qərarlar qəbul edilmiş, muxtar respublikada kənd təsərrüfatının dinamik inkişafının əsası qoyulmuşdur. Ötən dövrdə muxtar respublikada 205 kəndi əhatə edən 132 təsərrüfatda islahatlar aparılaraq 70 min 758 ailəyə və ya 241 min 46 nəfərə torpaq sahəsi verilmiş, yeni mülkiyyət münasibətlərinə əsaslanan təsərrüfat qurumlarının yaradılması istiqamətində görülmüş işlər kənd təsərrüfatının dinamik inkişafına səbəb olmuşdur. Qəbul olunmuş dövlət proqramlarının uğurlu icrası kənd təsərrüfatının bütün sahələrində nailiyyətlər qazanılmasına imkan vermişdir. Həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, 2015-ci ildə muxtar respublika üzrə 106 min 282 ton taxıl, 4481 ton dən üçün qarğıdalı, 6589 ton dənli-paxlalılar, 690 ton dən üçün günəbaxan, 45 min 43 ton kartof, 82 min 16 ton tərəvəz, 38 min 3 ton bostan, 51 min 111 ton meyvə, 15 min 354 ton üzüm məhsulu istehsal edilmiş, 96 milyon ABŞ dollarından artıq kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur.

Yubiley tədbirində nazirliyin əməkdaşlarından Ədalət Hüseynov və Vəli Novruzov çıxış etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında" 2016-cı il 28 mart tarixli Sərəncamına əsasən, Kənd Təsərrüfatı Nazirliyinin 1 əməkdaşı "Əməkdar kənd təsərrüfatı işçisi" fəxri adına layiq görülmüş, 2 əməkdaşı isə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini Mirhəşim Seyidov Ali Məclis Sədrinin Sərəncamını oxumuş və təltifləri nazirliyin əməkdaşlarına təqdim etmişdir.

Təltif olunan Ədalət Hüseynov, Rasim Hacıyev və Zərrab Əfəndiyev əməklərinə verilən yüksək qiymətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq etmişlər.

**"Şərq qapısı"**

***Muxtar respublikamızın ayrılmaz həyat ritminə çevrilən tikinti-quruculuq və təmir-bərpa işləri regionumuzu, eləcə də Naxçıvan şəhərini müasirliyə qovuşdurub. Şəhərimizə tez-tez yolu düşənlər şahidi olduqları dəyişikliklərdən təəccüblərini gizlədə bilmirlər. Qısa zaman kəsiyində on illərə bərabər inkişaf yolu keçən, tərəqqiyə qovuşan şəhərimiz bu gün, sözün həqiqi mənasında, tanınmaz dərəcədə dəyişib.***

## "Nümunəvi şəhər, nümunəvi məhəllə" devizi altında keçirilmiş aylığın qalibləri mükafatlandırılıb



Naxçıvan şəhərini xarici turistlər üçün cəlbedici edən amillərdən biri də şəhərin abadlığı və təmizliyidir. Təbii ki, bu nəticələrin əldə olunmasında müxtəlif aidiyyəti qurumların, eləcə də şəhər sakinlərinin də böyük əməyi var. Artıq bir ildir ki, Naxçıvan şəhərində "Nümunəvi şəhər, nümunəvi məhəllə" devizi altında aylıqlar keçirilir, bu aylıqların qalibləri mükafatlandırılır. Bu tədbirlərin davamı olaraq, başa vurduğumuz mart ayında "Nümunəvi şəhər, nümunəvi məhəllə" devizi altında keçirilən aylığın qalibi Naxçıvan şəhərinin "Çənlibel" məhəlləsi olub. Dünən aylıq qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxış edərək müsabiqə qaliblərini təbrik edib, yaşayış məntəqələrinin təmiz saxlanılması üçün həyata keçirilən tədbirlərin əhəmiyyətindən danışıb. Qeyd edilib ki, şəhər İcra Hakimiyyəti Naxçıvan Şəhər Polis İdarəsi ilə birgə hər ayın sonunda şəhərin bütün məhəllələrində reydlər keçirir, ən təmiz məhəllə aşkara çıxarılaraq o məhəllənin təmizliyində əməyi olan insanlar mükafatlandırılır.

Əminliklə demək olar ki, "Çənlibel" məhəlləsinin sakinləri və bu məhəllənin təmizliyinə cavabdeh olan qurumlar bundan sonra da keçiriləcək aylıqların qalibi olmaq üçün böyük səylə çalışacaqlar.

Sonra aylığın qaliblərinə qiymətli hədiyyələr təqdim edilib. Mart ayında keçirilən aylığın qalibləri Naxçıvan Şəhər Sanitar-Təmizlik İdarəsinin sürücüsü Ramazan Kərimov, "Çənlibel" məhəlləsinin sahə inspektoru Samiq Məmmədov, Mənzil-İstismar Sahəsinin əməkdaşı Əhməd Əbilov, məhəllə sakini Mirdamət Seyidov olub. Qaliblər göstərilən diqqətə görə minnətdarlıqlarını bildiriblər.

Sakinlər adından çıxış edən məhəllə ağsaqqalı Məmmədtağı Əliyev bildirib ki, o, əvvəllər dünyanın bir neçə ölkəsində olub, orada yaradılan şəraitin doğma Naxçıvan şəhərində də olmasını arzulayıb. Onun bu arzuları son 20 ildə reallaşıb. İndi Naxçıvan şəhəri öz təmizliyinə, abadlığına, ictimai asayişin təmin olunmasına görə ən inkişaf etmiş şəhərlər sırasındadır. Buna görə qürur duyur və belə yaxşı nəticələrin əldə olunmasında əməyi olanlara minnətdardır.

Tədbir əsnasında məhəllə sakinlərindən bir neçəsi ilə də həmsöhbət olduq. Sakinlər bildirdilər ki, bu gün hər bir məhəllə sakini abadlıq-təmizlik işlərini yüksək qiymətləndirir, həyata keçirilən tədbirləri ürəkdən dəstəkləyir, yaşadıqları məhəllənin təmiz saxlanmasında fəallıq göstərməyi özlərinin mənəvi borcu sayırlar. Onlar çalışacaqlar ki, "Çənlibel" məhəlləsi hər zaman sözügedən aylıqlarda öncül yerlərdə olsun.

**Səbuhi HÜSEYNOV**

## Pedaqoji təcrübənin başlanğıc konfransı keçirilib

***Naxçıvan Dövlət Universitetində 2015-2016-cı tədris ilinin ikinci semestrinə aid pedaqoji təcrübənin başlanğıc konfransı keçirilib.***



Konfransı universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq vurğulayıb ki, pedaqoji təcrübə tələbələrin ali təhsil zamanı aldıqları nəzəri bilikləri tətbiq etmələri, pedaqoji mühitə uyğunlaşmaları, pedaqoji prosesi dərindən mənimsəmələri baxımından mühüm əhəmiyyət kəsb edir. Rektor ümumtəhsil məktəbləri ilə əməkdaşlığın möhkəmlənməsinə, yüksəkixtisaslı kadr hazırlığına xidmət edəcək pedaqoji təcrübə zamanı məsuliyyət və nizam-intizamın vacibliyindən bəhs edib.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək bildirib ki, son 20 ildə muxtar respublikada 200-dən çox müasir standartlara cavab verən, yüksək təchizata malik təhsil müəssisəsi istifadəyə verilib. Yarım əsrə yaxın tarixə malik, Azərbaycanın qabaqcıl ali təhsil müəssisələrindən biri olan Naxçıvan Dövlət Universitetində də regionda intellekt bazasının, kadr potensialının formalaşması istiqamətində əhəmiyyətli işlər görülür. Növbəti pedaqoji təcrübə də gənclərin qocaman pedaqoqların zəngin və nümunəvi iş təcrübələrini öyrənmələri, gələcəyin mükəmməl pedaqoqları kimi yetişmələri baxımından öz bəhrəsini verəcək. Muxtar respublikanın tam orta məktəblərində təcrübəçi tələbələrin pedaqoji prosesi əyani şəkildə öyrənmələri, bilik və peşə vərdişlərini yaxşı mənimsəmələri üçün hər cür şərait yaradılıb.

Universitetin Tədris şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Rafiq Rəhimov bildirib ki, cari semestr ərzində ali məktəbin 6 fakültəsinin pedaqoji profilli 16 ixtisası üzrə 675 nəfər III-IV kurs tələbəsi muxtar respublikanın 17 tam orta məktəbində təcrübədə olacaq. Bundan başqa, IV kurs tələbələrinin müvafiq ixtisaslar üzrə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində, Naxçıvan "Tikiş" Açıq Səhmdar Cəmiyyətində, Naxçıvan Muxtar Respublikası Texniki Yaradıcılıq Mərkəzində, müxtəlif zavod və fabriklərdə istehsalat təcrübələri keçmələri nəzərdə tutulur.

Konfransda fəlsəfə elmləri doktoru Məmməd Hacıyev "Metodistlərin təcrübə dövründə yerinə yetirəcəyi işlər", Pedaqogika və psixologiya kafedrasının baş müəllimi Solmaz Bayramova "Təcrübə dövründə pedaqogika və psixologiya üzrə görüləcək işlər" mövzularında məruzələr ediblər.

Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin dekanı, dosent Qurban Qurbanlı pedaqoji təcrübənin düzgün təşkilinə xidmət edəcək təkliflərlə çıxış edib.

Konfransda ötən tədris ilindəki pedaqoji təcrübələri əks etdirən slaydlar nümayiş olunub.

**Mehriban SULTAN**

31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür

# Mart soyqırımı azərbaycanlılara qarşı törədilən bəşəri cinayətdir

***Azərbaycan türkləri tarixdə yeganə millətdir ki, bir əsrdə 4 dəfə soyqırımına məruz qalmışlar. Ermənilər öz havadarlarının köməyi ilə XX əsrin əvvəllərində, yəni 1905-1907-ci illərdə əvvəlcə Bakıda, sonra isə Azərbaycanın digər regionlarında azərbaycanlılara qarşı soyqırımı həyata keçirmişlər. 1905-ci ilin fevralında Bakıda başlanan qırğınlar planlı şəkildə baş vermişdir. Ermənilər Bakının neft səltənətini əllərinə keçirəcəklərinə və bundan sonra bütün Zaqafqaziyadan müsəlmanları silah gücünə qovub, "böyük Ermənistan" dövləti yaradacaqlarına əmin idilər. Fevralın 6-dan 10-na qədər Bakıda davam edən qırğınlar zamanı ermənilərin niyyətləri baş tutmamış və məğlub olmuşlar. Bakıda başlanan qırğın may-iyun aylarında Gəncə, Qarabağ, Şirvan, Zəngəzur, İrəvan, Şuşa, Cəbrayıl, Cavanşir, Qaryagin və başqa bölgələri də əhatə etmişdir.***

Ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı siyasəti tezliklə Naxçıvanda da həyata keçirilmişdir. 1905-ci il iyunun 17-də Naxçıvan qəzasının Zeynəddin kəndində ermənilərlə müsəlmanlar arasında baş vermiş münaqişə ilə əlaqədar Naxçıvanda yerləşən Qafqaz atıcı batalyonunun komandiri həmin il iyunun 18-də baş ştaba göndərdiyi raportunda yazırdı ki, *"ermənilərlə müsəlmanlar arasında baş vermiş münaqişələrin aradan qaldırılmasında vətəndaş hakimiyyətinə kömək etmək məqsədilə mənə həvalə edilmiş Naxçıvan şəhərində yerləşən batalyon 17 iyun tarixdə axşam saat 8-də silah işlətməyə məcbur olub, nəticədə, Zeynəddin kəndinin 20-dən çox müsəlman sakini öldürülmüşdür"*.

Digər bir raportda isə həmin ilin iyul ayının 5-də Nursu kəndində ermənilərlə müsəlmanlar arasında olan münaqişədə rus kazaklarının kəndə göndərilməsi nəticəsində dağlarda gizlənib özlərini ermənilərdən müdafiə edən sakinlərdən 4 nəfərin öldürüldüyü, 11 nəfərin isə yaralandığı haqda məlumat verilirdi. Ermənilərin Naxçıvanda törətdikləri qırğınlar Ordubad, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tivi, Tumbul və onlarla başqa şəhər və kəndləri əhatə etmişdir. Kazakların köməyindən istifadə edən ermənilər 1905-ci il noyabrın 26-da Naxçıvan şəhərindəki bazarı tamam qarət etdikdən sonra od vurub yandırmışlar. Yanğın nəticəsində bazarda 85 dükan, 75 anbar və başqa tikililər məhv olmuşdur. Noyabr ayının 30-da Cəhri kəndinin yandırılmasında da kazaklar ermənilərlə birlikdə hərəkət etmişdilər. Həmin gün Naxçıvana gəlmiş İrəvan general-qubernatoru Paskeviç hadisələrin təfsilatı ilə maraqlanmamış, Cəhri kəndi tamam yanıb qurtarandan sonra, dekabrın 2-də kəndə yollanmış, naxçıvanlıların haqlı şikayəti ilə bir daha qarşılaşmamaq üçün gecə ikən qatarla İrəvana qayıtmışdı. Həmin ilin may ayında Ordubad qəzasının Tivi kəndində ermənilərlə azərbaycanlılar arasında baş vermiş münaqişə ilə əlaqədar buraya 500-ə yaxın əsgər və zabit göndərilmişdir. Sənədlərdən aydın olur ki, hərbi hissə ermənilərə kömək etmiş, kənddəki müsəlmanlara qarşı zor tətbiq etmiş və onları öldürmüşdür.

Təxminən iki ilə qədər davam edən qanlı toqquşmalar nəticəsində Azərbaycan şəhərlərinə böyük zərər dəymiş, 300-dən çox kənd dağıdılmış, müxtəlif məlumatlara görə, ölənlərin sayı 100 min nəfərə çatmışdır.

Ötən əsrin ikinci onilliyində ermənilərin azərbaycanlılara qarşı törətdikləri 1918-ci il soyqırımı daha amansız olmuşdur. Həmin dövrdə Bakıda, Qubada, Şamaxıda, Lənkəranda, Salyanda, Göyçayda və başqa yerlərdə dəhşətli qırğınlar törədilmişdir. 1918-ci ilin mart soyqırımı S.Şaumyanın rəhbərlik etdiyi Bakı Kommunası hökumətinin əli ilə həyata keçirilmişdir. Bakı qırğınında Y.Korqanov və Petrovla birlikdə azərbaycanlı qanına susamış A.Mikoyanın, Hamazaspın, Avetisyanın, Lalayanın quldur dəstələri xüsusi fəallıq göstərmişlər. Bakıda erməni daşnakları dinc əhaliyə üç gün divan tutmuş, 17 min azərbaycanlını vəhşicəsinə öldürmüş, "İsmailiyyə"ni yandırmış, bir neçə qəzet və jurnal redaksiyalarını dağıtmışlar. A.Mikoyanın "Qızıl qvardiyası"nın vəhşiliyi nəticəsində İçərişəhərdə yaralılar yatan xəstəxanaya od vurulmuş, 2 minədək xəstə yandırılmış, qaçanlar isə güllələnmişdir.

Arxiv materiallarında göstərilir ki, silahlanmış və mükəmməl təlim görmüş ermənilər müsəlmanların evlərinə hücum edərək onları öldürür, uşaqları xəncər və süngüylə qətlə yetirir, oda ataraq yandırırdılar. Onların terrorçuluq fəaliyyəti zamanı təkcə insanlar soyqırımına məruz qalmamış, Türk və İslam mədəniyyət mərkəzləri, tarixi abidələr də məhv edilmişdir. Bir sözlə, 1918-ci il mart soyqırımı hadisələrində minlərlə insan erməni vandalizminin qurbanı olmuşdur. O dövrdə Bakıda olan İngiltərə konsulu Mak Donell yazırdı ki, şəhərdə cəsədlərdən başqa heç nə yox idi.

Ermənilərin törətdikləri soyqırımı yalnız Bakı ilə məhdudlaşmırdı. Azərbaycanın bütün bölgələrində – Şamaxıda, Qubada, Gəncədə, Lənkəranda, Qarabağda əhali ağır işgəncələrlə qətlə yetirilirdi. Xüsusilə Naxçıvanda azərbaycanlılara qarşı törədilən soyqırımında Andranik Ozanyan, Dro, Njde və digər cəlladların başçılıq etdikləri dəstələr böyük rol oynamışlar. Özünəməxsus vəhşiliyi ilə seçilən Andranik öz adını ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı tarixinə xüsusi nifrətlə yazmışdır. Mənbələr onun kimliyi haqqında o qədər dolğun məlumat verməsə də, törətdiyi cinayətlər barədə kifayət qədər məlumatlar var. O, bir çox qanlı cinayətlərə imza atmışdır. O, Araz çayı sahilində 4 min nəfərə yaxın əhalisi olan Yaycı kəndini yerlə yeksan etmiş, kənd əhalisinin 2500 nəfərini qətlə yetirmiş və Araz çayına tökmüşdü. Andranikin Araz çayına tökdüyü insanların cəsədləri sonradan sahilə çıxarılaraq dəfn olunmuşdur. Cəsədlərin sayı o qədər çox idi ki, böyük bir qəbiristanlıq yaranmışdı. O vaxtdan bu, Yaycı qəbiristanlığı olaraq tarixə düşmüşdür.

Digər bir fakt: Andranikin qoşunları Sirab kəndinə istiqamət aldığı vaxt Sirab kəndi ətrafında çoxlu qaçqın toplaşmışdı. Onlar kəndin özündən, habelə uzaq və ətraf kəndlərdən gələnlər idi. Erməni quldurlarının silahsız, müdafiəsiz insanların üzərinə hücumu nəticəsində bir gün ərzində 10 mindən artıq günahsız insan qətlə yetirilmişdir. Bu, elə bir cinayət idi ki, mənbələrin verdiyi məlumata görə, 20 gün ərzində kənd içərisində bir-birinin üstünə qalanmış meyitləri daşıyıb qurtarmaq mümkün olmamışdır.

Andranik və onun dəstəsinin silahlı hücumları nəticəsində Ordubad ətrafı, Əlincəçay boyu, Şahbuz kəndlərinin əhalisi tərk-silah olunmuş, xeyli hissəsi qətlə yetirilmişdir. Sirab, Nursu, Kolanı, Hənzər, Mahmudoba, Əbrəqunus, Qazançı, Paradaş, Xanağa, Tivi, Bənəniyar, Camaldın, Ərəzin, Kırna kəndlərində də dəhşətli qırğınlar törədilmişdir. Naxçıvanda baş verən cinayətlər haqqında xüsusilə bəhs etmək lazımdır. O dövrdə rəhbərlik müəyyən səbəblərdən və çətinliklərdən Naxçıvana lazımi dəstək verə bilmirdi. Ancaq Naxçıvanın özünümüdafiə dəstələri bu ərazinin ermənilər tərəfindən işğal olunmasına imkan verməmişlər.

1918-1920-ci illərdə ermənilərin Azərbaycanın bir çox bölgələrində, o cümlədən Naxçıvanda törətdikləri cinayətlərin arxasında hansı dövlət dayanırdı? Xarici dəstək olmasaydı, ermənilər belə cinayətlərə əl ata bilərdilərmi? 4 dekabr 1917-ci ildə London İngilis-Erməni Komitəsinin sədri və İngiltərə Parlamentinin üzvü Anurin Uilyams İngiltərənin məşhur diplomatlarından olan, eyni zamanda Millətlər Cəmiyyətinin qurucusu Lord Robert Sesilə göndərdiyi məktubda ermənilərə yardım göstərilməsinin vacib olduğunu bildirirdi. Anurin Uilyams hətta ermənilərin silahlandırılmasını və Andranik kimi silahlı dəstə liderlərindən istifadə edilməsini də zəruri hesab edirdi. Məktubda ingilis, fransız və amerikan hökumətlərinin də erməni ordusuna maddi dəstək vermələrinin vacib olduğu bildirilmiş, sərhədlərdən kənarda yaşayan ermənilərin pul yardımı ilə Cənubi Qafqaza gətirilmələrinin qaçılmaz olduğu yazılmışdı. Nəticədə, İngiltərənin Hərbi Kabineti özünün 7 dekabr 1917-ci il tarixli iclasında ermənilərə maliyyə dəstəyi verilməsi haqda qərar qəbul etmişdir. Bununla birlikdə erməni könüllü dəstələrinin də Qafqaza fərqli yollardan gəlməsinə icazə verilmişdir. İngiltərə tərəfindən ermənilərin dəstəklənməsi üçün ayrılan yardım 20 milyon sterlinq idi. 1917-ci ilin sonları və 1918-ci ilin əvvəllərində İngiltərə tərəfindən Tehrandan Bakıya, oradan da ermənilərə verilməsi üçün Tiflisə külli miqdarda qızıl və pul göndərilmişdir. Sadəcə, pul deyil, müxtəlif silah və sursatlar da tədarük edilmişdir. Bu yardımlar Versaldakı Antanta Ali Hərbi Şurası ingilis hərbi mütəxəssislərinin 1917-ci ilin dekabr ayındakı memorandumunda açıq şəkildə göstərilməkdədir: *"Ermənilərə hər vəziyyətdə işğal etdikləri bölgələrdə pul, silah və sursat tədarükü ingilis siyasətinin maraqları daxilindədir. Bu təcrübənin uğurlu olması nəticəsində erməni qüvvətlərindən gələcəkdə türklərin diz çökməsi üçün faydalanmaq olar"*.

1918-1920-ci illərdə ermənilər Bakı quberniyasında 229, Gəncə quberniyasında 272, İrəvan quberniyasında 211, Zəngəzurda 115, Qarabağda 157, Qars əyalətində 92, İqdır və Eçmiədzin qəzalarında 60, Göyçə quberniyasında 22, Sürməli qəzasında 96, Yeni Bəyaziddə 84, Şərurda 76, Vedibasarda 118, Dərələyəzdə 74 kəndi yerlə yeksan etmişlər. Daşnaklar həmin illərdə Qərbi Azərbaycanda (indiki Ermənistanda) öz tarixi ərazilərində yaşayan 565 min azərbaycanlını məhv etmiş, Qarabağ, Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarında azərbaycanlıları kütləvi surətdə qılıncdan keçirmişlər.

1988-ci ildən başlayaraq ermənilər tərəfindən Azərbaycana qarşı həyata keçirilən işğalçılıq siyasəti soyqırımı siyasətinin növbəti mərhələsi olmuş, torpaqlarımız işğal olunmuş, Xocalı soyqırımı törədilmişdir. Lakin 1990-1993-cü illərdə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi bu qədim Azərbaycan torpağında ermənilərin növbəti soyqırımı və işğal siyasətinin həyata keçirməsinin qarşısını almışdır. Əgər 1905-1907 və 1918-1920-ci illərdə Naxçıvanda minlərlə insan erməni soyqırımının qurbanı olmuşdursa, 1990-1993-cü illərdə ulu öndərin rəhbərliyi ilə naxçıvanlılar torpaqlarımızı işğaldan qorumuş, yüzlərlə şəhid verərək bu torpaqda növbəti soyqırımı törədilməsinin qarşısını almışlar. Ümummilli lider Heydər Əliyevin ölkəmizdə ali hakimiyyətə qayıdışından sonra isə mart soyqırımına dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmişdir. Ulu öndərin 1998-ci il 26 mart tarixli "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanı onun doğma xalqı qarşısında, günahsız yerə qətlə yetirilənlərin ruhu önündə ən böyük xidmətlərindən biridir. Fərmanda deyilir: ***"Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə – 1918-ci il mart soyqırımına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq, soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".*** Azərbaycan tarixinə işıq salan bu mühüm tarixi sənədə uyğun olaraq, hər il ölkəmizdə 31 Mart "Azərbaycanlıların Soyqırımı Günü" kimi qeyd edilir.

1918-ci ildə törədilən azərbaycanlıların soyqırımının təşkilatçıları olan ermənilər tarix qarşısında cavab verməlidirlər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək, ***"Biz yalnız tarixi ədalətin bərpa edilməsini, işğal və soyqırımı siyasəti yürüdənlərin beynəlxalq ictimaiyyət qarşısında cavab verməsini istəyirik".***

**Emin ŞIXƏLİYEV**
**tarix üzrə fəlsəfə doktoru**

# Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbirlər keçirilib



***AMEA Naxçıvan Bölməsində "Azərbaycanılara qarşı həyata keçirilən soyqırımı siyasəti" adlı elmi konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açmışdır*.**

Akademik ermənilərin xalqımıza qarşı yürütdüyü soyqırımı siyasəti, soydaşlarımızın amansızlıqla qətlə yetirilməsi, repressiya və deportasiyaya məruz qalması, etnik təmizləmə, ərazilərimizin bir hissəsinin işğal edilməsi barədə ətraflı məlumat vermişdir.

Qeyd edilmişdir ki, uzun illər ərzində bu acı həqiqət dünya ictimaiyyətinə çatdırılmamış və erməni vəhşiliyinə siyasi qiymət verilməmişdir. Yalnız ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra bu məsələyə prinsipial yanaşma nümayiş etdirilmiş, erməni millətçilərinin xalqımıza qarşı illərlə reallaşdırdıqları soyqırımı siyasətinin mahiyyəti bütünlüklə açıqlanmış və ifşa olunmuşdur. Məhz ümummilli lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanı ilə xalqımıza qarşı törədilmiş ağır cinayətlərə hüquqi-siyasi qiymət verilmişdir.

Akademik İsmayıl Hacıyev Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə, eləcə də gələcək nəsillərə çatdırılması istiqamətində bölmə əməkdaşlarının da üzərinə böyük vəzifələr düşdüyünü vurğulamışdır. O demişdir ki, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşları bu mövzuda tədqiqatlarını genişləndirməli, monoqrafiyalar, kitablar nəşr etdirməli, sənədli materiallar hazırlamalı, eyni zamanda internet vasitəsilə təbliğat aparmalıdırlar.

Konfransda AMEA Naxçıvan Bölməsinin əməkdaşlarından tarix üzrə fəlsəfə doktoru Emin Şıxəliyev "XX əsrdə azərbaycanlılara qarşı törədilən soyqırımların mahiyyəti", AMEA-nın müxbir üzvü Əliəddin Abbasov "Böyük geosiyasətin məngənəsində", aqrar elmlər doktoru Varis Quliyev "Soyqırımı milli faciəmizdir", fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Qulu Həziyev "Mart soyqırımının pərdəarxası tərəfləri", filologiya üzrə fəlsəfə doktoru Firudin Rzayev "XIX-XX əsrlərdə yer adlarımıza qarşı aparılmış soyqırımı" mövzularında məruzələr etmişlər.

Sonra erməni vəhşiliklərini əks etdirən "31 Mart –Azərbaycanlıların Soyqırımı" adlı video-slayd nümayiş etdirilmişdir.

***Tarix boyu təcavüzkar siyasət yeridən, qanlı əməllərindən və "böyük Ermənistan" yaratmaq xülyasından əl çəkməyən ermənilər zaman-zaman xalqımıza qarşı soyqırımı törədib, havadarlarının dəstəyi ilə daim əzəli torpaqlarımızı işğal etməyə çalışıblar.***



Bu fikirləri Naxçıvan Dövlət Universitetində 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş elmi konfransda çıxış edən ali təhsil ocağının rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov səsləndirib.

Konfransda əvvəlcə soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Elmi konfransda çıxış edən Saleh Məhərrəmov deyib ki, Azərbaycan müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilib. Ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı Fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan olunub.

Elmi konfransda universitetin Ümumi tarix kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Abdulla Mustafayevin "31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür", Ümumi tarix kafedrasının müəllimi, doktorant Arzu Abdullayevin "31 mart – tarixin qanlı və kədərli səhifəsi" mövzularında məruzələri dinlənilib.

Məruzələrdə vurğulanıb ki, ermənilərin törətdiyi qanlı faciələrin daha dəhşətlisi 1918-ci ilin mart ayında baş verib. Bu hadisələr zamanı Azərbaycanın yüzlərlə şəhər və kəndi xarabalığa çevrilib. Həmin dövrdə Azərbaycan ərazisində 700 minədək azərbaycanlı, o cümlədən Bakıda və ətraf kəndlərdə 30 minə yaxın soydaşımız öldürülüb, məscidlər, məktəb binaları yandırılıb, dağıdılıb.

Qeyd olunub ki, bu gün Azərbaycan həqiqətlərinin dünya dövlətləri və ictimaiyyəti tərəfindən qəbul edilməsi istiqamətində uğurlu siyasət həyata keçirilir.

**Xəbərlər şöbəsi**

***Tarix kitabımızda qara hərflərlə yazılmış bir neçə səhifə var. Qara hərflərlə yazılsa da, Azərbaycan xalqının məğrurluğunu, qəhrəmanlığını, düşmən qabağında əyilməzliyini... göstərən bu səhifələr son illərdə daha çox vərəqlənir. 70 il sovet dönəmində bu səhifələrdə olan həqiqətlər xalqdan gizli saxlanılıb. Lakin bu həqiqətləri görkəmli şəxsiyyətlərimiz gec də olsa, xalqımıza çatdırmağı bacarıb. Bununla da təhrif edilmiş tariximizin bugünkü və gələcək nəsillərə olduğu kimi çatdırılması imkanı qazanmışıq. Belə səhifələrdə rastlaşdığımız qəddarlıqlar, qaniçənliklər və insanlığa yaraşmayan digər mənfi keyfiyyətlər bu gün bəşər övladını düşünməyə sövq etməyə bilməz. Xalqımızın başına gətirilən faciələr barədə saatlarla, günlərlə danışmaq olar. Bu faciələrdən birini 1918-ci ildə qaniçən Andranikin quldur dəstəsi Culfa rayonunun Yaycı kəndinin sakinlərinə yaşadıb. Həmin dövrdə Yaycının 2500-dən artıq sakini qılıncdan keçirilib.***

## Yaycı: mərdlik, vətənpərvərlik və qəhrəmanlıq nümunəsi



Məlumat üçün bildirək ki, Culfa rayonunun Yaycı kəndi Naxçıvan Muxtar Respublikasının ən böyük yaşayış məntəqələrindən biridir. Arazın sahilində Qızılqaya dağının ətəyində yerləşən bu kənd qədim tarixə malikdir. Doqquzuncu əsrdə yaradıldığı ehtimal olunur. Bu gün 8 minə yaxın sakini olan kənd ermənilərin hücumları vaxtı ən çox qırğınlara məruz qalan yurd yerlərindən biridir. Bunu tarixi faktlar və canlı şahidlərin söylədikləri də təsdiq edir. Yaycı kəndinin ən yaşlı sakinlərindən biri Cəfər Əliyevdir. 1922-ci ildə anadan olub, Andranikin Yaycıya hücumundan 4 il sonra. Atasından, həmkəndliləri Yasəmən nənədən, qonşuları Hacı İbrahimdən, Hidayət Salahovdan və digər o günləri yaşamış yaycılılardan eşitdiyi faciəni danışarkən hal-dan-hala düşür, gözləri dolur. Həyəcansız dinləmək mümkün olmayan bu söhbətlərin fonunda həmin hadisələri təsəvvürümdə canlandırmağa çalışıram.

Cəfər dayının sözlərinə görə, "Min evli" adlandırılan bu kənddə 1918-ci ildə elə bir ailə olmamışdır ki, faciənin qurbanına çevrilməsin. Hər ailənin bir, iki və daha çox üzvü erməni qaniçənlərindən canlarını qurtara bilməmişdir. Onlarla ailə bütün üzvləri ilə birlikdə evlərində qətlə yetirilmişdir. Yasəmən adlı qadının qolunu kəsmişdilər. O, son illərdə dünyasını dəyişmişdir.

1918-ci ilin iyun ayında baş vermiş bu qanlı hadisə erməni faşistləri tərəfindən törədilən soyqırımı idi. Kəndin əhalisi yarıbayarı azalmışdı. İtkin düşənlər də vardı. Danışırlar ki, kənddə 7 il matəm saxlanılmışdır. Xeyir mərasimləri, şənliklər olmamışdır.

–Yaycılılar çox qorxmaz insanlardır. Düşmən qabağından qaçmağı özlərinə sığışdırmayan yaycılılar həm də təbiətən başqalarına da özləri kimi inanırlar. Elə başlarına gələnlərə də bu inam səbəb olub, – deyə Cəfər Əliyev gözlərini atası Vəli kişinin divardan asılmış şəklinə zilləyir, bir qədər sonra söhbətinə davam edir:

–Ordubad rayonunun qonşu Aza və Darkəndində yaşayan ermənilərin Andranikin planlarından xəbərləri varmış. Həmin ermənilər yaycılıları inandırmağa çalışırlar ki, Andranikin dəstəsi buradan səssiz-səmirsiz keçəcək, sizə heç bir xətər toxundurmayacaq. Və bu yalanla kənd adamlarını aldada bilirlər.

Andranik Ozanyan 5 min nəfərlik qoşunla (onlardan 4000-i piyada, 1000-i isə süvari dəstə idi) Naxçıvan ərazilərinə daxil olur və ilk qəfil zərbəsini Naxçıvan qəzasının iri yaşayış məntəqələrindən olan Yaycıya vurur.

Ermənilər kəndə günorta vaxtı hücum edirlər. Bu, o vaxt idi ki, kəndin kişiləri çöl işləri ilə məşğul idilər. Kimisi ot biçməyə, kimisi əkinlərini suvarmağa, kimisi digər kənd təsərrüfatı işləri görməyə getmişdilər. Kənddə qalanlar yalnız qadınlar, uşaqlar, qocalar və xəstələr idi. Bu inanılmaz gəlişi gözləməyən Yaycıda qan su yerinə axır. Azğınlaşmış quldur dəstələri bir günün içində kəndi yerlə yeksan edir. Evlər qarət olunub yandırılır, qocalar, qadınlar, uşaq və körpələr qılıncdan keçirilir. Yaycılıların bəziləri isə ömrünü Araz çayından o tərəfə keçmək istəyərkən başa vurur.

Cəfər kişi həmkəndlisi, dünyasını dəyişmiş Zəhra İsmayılovanın dediklərini xatırlayır:

– O Andranik məlun bizim ailəyə də sağalmaz yaralar vurmuşdur. Anamgil altı bacı idilər: Fatma, Leyla, Züleyxa, Səmənnaz, Zəhra və anam Həlimə. Onlardan salamat qalanı təkcə anam olmuşdur. Xalalarımın bəzini də ermənilər uşaqları, körpələri ilə birlikdə qəddarlıqla öldürmüşlər. Züleyxa xalamın təkcə bir övladı təsadüfən sağ qalmışdı. Adı Abbas idi. Erməni quldurları onu qamçı ilə vurub öldürülmüş anasının yanına sərmişdi. Hər ikisini ölmüş bilmişlər. Lakin xoşbəxtlikdən uşaq sağ qalmışdır.

* * *

Məlumat üçün bildirək ki, 1941-1945-ci illər müharibəsi də yaycılılar üçün itkisiz ötüşməmişdir. Bu müharibədə 100-dən artıq yaycılı evinə qayıda bilməmişdir. Bu gün kənddə onların şərəfinə abidə vardır.

1988-ci il hadisələri zamanı Yaycı vətənpərvərliyi bir daha özünü büruzə vermişdir. Kənd sakinləri, o cümlədən cavanlar çox böyük mütəşəkkilliklə Naxçıvan Muxtar Respublikasının sərhədlərini azğınlaşmış ermənilərdən qorumuşlar. O vaxtlar Yaycının könüllü dəstələri Sədərək, Şahbuz dağlarında, Ordubad ətrafında ermənilərlə ölüm-dirim savaşında əsl qəhrəmanlıqlar göstərmişlər. Ümumiyyətlə, Yaycı Dağlıq Qarabağda və muxtar respublikanın torpaqlarının müdafiəsində 6 şəhid vermişdir. Azadlığımız və Vətəni yağı düşməndən qoruması naminə canlarını qurban verən həmin igidlərin adları yaycılıların, həmçinin bütün xalqımızın qəlbində əbədiləşmişdir.

* * *

Yaycı kəndində doğulub boya-başa çatan ziyalı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Fərəc Fərəcov doğma yurd yerindən bəhs edən bir neçə kitabın müəllifidir. Onlar içərisində hər bir yaycılının stolüstü kitabına çevrilmiş "Yaycı soyqırımı" kitabı da var. Müəllifin uzun illər apardığı araşdırmalar, həmin dəhşətli faciənin şahidləri ilə söhbətlər əsasında qələmə aldığı kitabını həyəcansız oxumaq mümkün deyil.

Kitabdakı "Məkrli köçürmələr" adlı fəsildə ermənilərin məkrli niyyətləri açılır, oxucu I Pyotrun bədnam vəsiyyətnaməsi, zaman-zaman ermənilərin Azərbaycan torpaqlarına basqınları, dəhşətli qırğınları ilə tanış olur. Yaycı soyqırımı öz dəhşətləri ilə həmin soyqırımlarla müqayisə edilir.

Yaycı kənd sakinləri Hüseyn Kazım oğlu Cəfərov, Əbülfəz Hacı İbrahim oğlu Mövlayev, Məşədi Əli Cəfərov, Yasəmən nənə və başqalarının söhbətləri hər birimizi düşündürməyə sövq edir. "O müdhiş gecədən zaman keçsə də" adlı yazıda oxuyuruq: "Qəddar erməni daşnakı Andranik Naxçıvan diyarının ən iri kəndlərindən sayılan Yaycını dağıdıb viran qoydu. Böyük bir yaşayış məskənini bir-iki günün ərzində ölü kəndə çevirdi. Saya gəlməz insanları qırdı... Yaycının indiki sakinləri öz doğmalarının, əzizlərinin başına gətirilmiş o qanlı qırğını necə unuda bilərlər? O müdhiş faciədən zaman keçsə də, onun odu-alovu ürəklərdə sönməməli, bizi amansız düşmənə qarşı daim sərvaxt olmağa səfərbər etməlidir... Əsas məsələlərdən biri odur ki, Yaycı soyqırımı və digər neçə-neçə faciələrimiz barədə məlumatlar öz içimizdə "tozlanmamalıdır". Bu haqda hər bir söz, hər bir xəbər böyük dünyamızı qarış-qarış, addım-addım dolaşmalı və ermənilərin kimliyini, onların "nə yuvanın quşu" olduqlarını göstərməlidir".

* * *

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra tariximiz olduğu kimi xalqın üzünə açıldı. 1918-ci ildə baş verən hadisələrdən cavan nəsillər xəbər tutmağa başladı. Yaycıda böyükdən-kiçiyə hamı soyqırımı qurbanları uyuyan ərazidə abidə ucaldılması arzusunda idi. 2007-ci ildə yaycılıların arzu və istəyi gerçəkləşdirildi. Kənddə soyqırımı qurbanlarının xatirəsinə bir abidə inşa olundu, ətrafında park salındı, tikinti-abadlıq işləri görüldü. İndi bura kənd sakinlərinin, xüsusilə də gənclərin müqəddəs and yerinə çevrilib.

Kəndin meydanında ucaldılmış bu abidənin yanından dayanmadan heç bir yaycılı keçmir. Bu gün uşaq yaşlı yaycılılara, yeniyetmə və gənclərə 1918-ci ildə baş vermiş faciə haqqında həm evlərdə, həm də məktəblərdə ətraflı məlumat verilir. Onların vətənpərvərlik hisslərinin gücləndirilməsi diqqətdə saxlanılır. Tarixi yaddaşın unudulmaması üçün tədbirlər həyata keçirilir.

Yaycı yaşayır.

**Muxtar MƏMMƏDOV**

### Milli qəhrəmanlarımız

## Vətən qəhrəmanları ilə tanınır



***Qəhrəmanlıq bizə tariximizin dərinliklərə uzanan qatlarından gəlir. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Cəmşid xan Naxçıvanski, Həzi Aslanov, Mehdi Hüseynzadə və adını sadalamadığımız neçə-neçə igid və cəsur oğullarımızın şəxsi nümunəsi bizə əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Ancaq unutmayaq ki, qəhrəmanlığın əsasını qoyan amil vətənpərvərlikdir. Çünki vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Bəlkə də buna görədir ki, tarix boyu xalqımız öz Vətənini göz bəbəyi kimi qorumağa hər an hazır olan igid oğullar yetişdirmişdir. Müstəqilliyimizin ilk illərində canlarını Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda fəda edən qəhrəman oğullarımız bunu bir daha sübut etdilər. Onlardan biri də Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyev idi.***

Yusif Mirzəyev 1958-ci il mayın 23-də indiki Kəngərli rayonunun Böyükdüz kəndində anadan olmuşdur. 1975-ci ildə İslam Səfərli adına Naxçıvan şəhər 1 nömrəli orta məktəbi bitirmiş, 1976-cı ildən rabitə sahəsində əmək fəaliyyətinə başlamışdır. O, işləyə-işləyə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) ali təhsil alır. 1987-ci ildə həmin institutun Mühasibat uçotu ixtisasını bitirir və Bakıdakı bankların birində müfəttiş vəzifəsinə təyin olunur. Ötən əsrin sonlarında ölkəmizdə baş verən hadisələr Yusif Mirzəyevi də çox narahat edirdi. Xüsusilə 1990-cı il 20 Yanvar faciəsi ona böyük təsir edir və xalqımıza qarşı törədilmiş bu qanlı hadisəyə biganə qala bilmir, hətta faciə zamanı imperiya ordusunun əsgərləri tərəfindən ağır işgəncələrə məruz qalır. Lakin bu işgəncələr Yusifi sındırmır, əksinə, onu daha da mətinləşdirir.

Milli Qəhrəmanın bacısı Naibə Mirzəyeva bizimlə söhbətində bildirdi ki, ailədə yeddi uşaq olmuşuq – dörd qardaş, üç bacı. Yusif qardaşlardan ən böyüyü, uşaqlardan isə ikincisi idi. O, kiçik yaşlarından dürüstlüyü, sadəliyi, mərdliyi ilə seçilirdi. Heç kimi incitməz, xaraktercə şən olduğuna görə hamıyla zarafatlaşar, deyib-gülərdi. Hələ orta məktəbdə oxuduğu illərdə yaşıdları arasında hörmət qazanmışdı. Onun Vətənə olan məhəbbəti sonsuz idi. Vətənini hər şeydən üstün tuturdu. Hərbi xidmətini Rusiyanın Çita vilayətində keçmişdi. Xidmət etdiyi dövrdə daim komandirləri tərəfindən yüksək qiymətləndirilmiş, bununla bağlı evimizə təşəkkür məktubları göndərilmişdi.

Naibə xanım dedi ki, Dağlıq Qarabağda ermənilərin törətdiyi qanlı cinayətlər onu bir an belə rahat buraxmırdı. O, 1991-ci ilin sonlarında könüllü olaraq cəbhə bölgəsinə yollandı. Yusif Mirzəyevin ilk döyüşü Ağdərə-Goranboy istiqamətində olmuşdu və tez bir zamanda xidmət etdiyi briqadanın fəal döyüşçülərindən birinə çevrilmişdi. Komandanlıq onu briqada komandirinin təchizat üzrə müavini təyin etmişdi. Bacarığı, cəsurluğu ilə qısa müddətdə hərbi hissədə hamının rəğbətini qazanmışdı. Yusif Mirzəyev 14 nəfərlik dəstəsi ilə bütün əməliyyatlarda layiqincə iştirak etmişdir. Ağdərədə 17 kəndin ermənilərdən geri alınmasında onun müstəsna xidmətləri olmuşdur. Yusif cəbhəyə və silah yoldaşlarına çox bağlı idi. Döyüşlərin ağır getdiyi bir zamanda böyrəklərində ciddi problemlər yarandığına görə onu xəstəxanaya yerləşdirmişdilər. Lakin müalicəsi bitməmiş həkimlərin ciddi etirazına, bizim təkidli istəklərimizə baxmayaraq, yenə də cəbhəyə yollanmışdır. O, döyüşlərin birində öz dəstəsi ilə mühasirəyə düşür. Lakin çevikliyi və cəldliyi sayəsində itki vermədən döyüşçü yoldaşlarını mühasirədən çıxarmağı bacarır. 1993-cü il fevral ayının 19-da Ağdərədə gedən qeyri-bərabər döyüşlərin birində isə silah yoldaşlarını mühasirədən çıxırarkən qəhrəmancasına şəhid olur. 1993-cü il fevralın 21-də Yusifin cənazəsi doğma Naxçıvanına gətirildi. Onu Şəhidlər xiyabanında dəfn etdik və cəmi bir ay sonra Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi. Bu gün Bakı şəhərinin Nəsimi rayonundakı 44 nömrəli tam orta məktəb onun adını daşıyır. Məktəbin qarşısında və Naxçıvan şəhərindəki Nizami küçəsində onun büstü qoyulmuşdur. Yusifin qəhrəmanlığına mahnılar bəstələnmiş, şeirlər yazılmışdır...

Elə mahnılardan söz düşmüşkən qeyd edək ki, bu gün hər kəsin dillər əzbəri olan "İgid əsgər, möhkəm dayan" mahnısı Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevə həsr olunmuşdur. Mahnının ifaçısı Şəmistan Əlizamanlı deyir ki, Yusiflə tanışlığımız cəbhədə başlamışdı: "Ağdərə döyüşləri zamanı, 1992-ci ilin sentyabr ayının sonlarında Çıldıran kəndi uğrunda əməliyyatda iştirak edirdik. Mühasirəyə düşmüşdük. Mühasirədən çıxandan sonra Yusiflə tanış oldum. İlk baxışdan mənə elə gəldi ki, onu elə uşaqlıq illərimdən tanıyıram. O qədər istiqanlı, səmimi adam idi ki, tez bir zamanda biz yaxın dost olduq. Onun səhhətində müəyyən problemlər var idi. O zaman biz onu məcbur etdik ki, Bakıda müalicə alsın. Hərbi əməliyyatlar zamanı mən də xəsarət almışdım. Elə oldu ki, biz Yusiflə eyni xəstəxanada müalicə olunduq. Xəstəxananın həkimi Şahin Musaoğlu bizə tez-tez baş çəkirdi, bizimlə söhbət edirdi. Yusifin sənədləri hələ sağlığında göstərdiyi xidmətlərə görə "Milli Qəhrəman" adına təqdim olunmuşdu. Ağdərə rayonunun mərkəzini 14 nəfərlə bir gün qoruyub saxlamışdı, erməni hücumunun qarşısını almışdı. Bu, görünməmiş bir igidlik idi. Bir dəfə həkimimiz Şahin Musaoğlu dedi ki, bir mahnı yazmışam və mahnını zümzümə etdi. Doğrusunu desəm, mahnı məni elə də cəlb etmədi. Yusif isə o saat mahnıya reaksiya verdi. Dedi ki, gözəl mahnıdır. Bir dəfə ondan soruşdum ki, doğrudanmı, mahnı xoşuna gəlir? Dedi ki, mən bu mahnını çox bəyənmişəm. Mən də zarafatla dedim ki, əgər sənin xoşuna gəlirsə, bu mahnını mən ifa edəcəyəm. Dedi ki, söz verirsən? Dedim ki, söz verirəm. Təbii ki, mən zarafat edirdim. Çünki o zamana qədər heç vaxt mahnı ifa etməmişdim. Heç bilmirdim ki, məndə mahnı ifaçılığı alınar, yoxsa yox. Biz xəstəxanadan tərxis olunduqdan sonra Yusif Ağdərəyə qayıtdı. Hərdən Bakıya gələndə soruşurdu ki, o mahnının axırı necə oldu? Mən də hər dəfə bir bəhanə ilə ləngidirdim. Növbəti dəfə Yusif soruşanda həmin mahnının sözlərinin çap olunduğu vərəqi ona göstərdim. Dedim ki, görürsən, bax burada yazmışam ki, Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevə ithaf edirəm. O, çox sevindi... Bir neçə gün sonra şəhid oldu. Bu, mənim üçün çox ağır bir itki idi. Bir sarsıntı keçirdim. Həm əziz, doğma bir insanı itirmək, həm də müharibə şəraitində Azərbaycanın belə bir qəhrəman oğlunu itirmək, doğrudan da, çox ağır idi. Onun vəfatının 40-cı günü biz "Vətən sənə oğul dedi" adlı bir veriliş hazırladıq. Onda dostlarımız dedilər ki, sən sağlığında Yusifə söz vermisən, mahnını ifa et. Beləliklə də, mahnını yazdırdıq. Mahnını müharibə görüntüləri ilə birlikdə Yusif haqqında hazırladığımız verilişin sonunda verdik. Veriliş efirə gedəndən sonra mahnı haqqında qəzetlərdə yazılar dərc olundu. Mən də gördüm ki, uğurlu alınır və həkim-bəstəkar Şahin Musaoğlu ilə birlikdə bu işimizi davam etdirdik və ardınca bir çox vətənpərvər mahnılar yarandı. Mənim ifaçılığımın meydana çıxması Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevə həsr olunmuş o mahnı ilə başlayıb. Yusif olmasaydı, təbii ki, mənim bu yaradıcılığım üzə çıxmayacaqdı..."

*Bəli, Yusif bu gün də şeirlərdə, mahnılarda və ən əsası ürəklərdə yaşayır. "Ya azad ol, ya candan keç", – deyə hayqıran bu Vətən oğlunun ömür yolu indi bütün gənclərimiz üçün əsl nümunədir. Bu nümunəni isə Milli Qəhrəmanımız canından artıq sevdiyi Vətəninə sonsuz sevgisi ilə ortaya qoymuşdu.*

**Səbuhi HƏSƏNOV**

## Mart soyqırımının qurbanları heç vaxt unudulmayacaq

*Naxçıvan Müəllimlər İnstitutunun müəllim və tələbə heyətinin iştirakı ilə Naxçıvan Dövlət Film Fondunda Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı elmi konfrans keçirilib.*

Konfransı giriş sözü ilə Naxçıvan Müəllimlər İnstitutunun tədris işləri üzrə prorektoru, filologiya elmləri doktoru, professor Akif İmanlı açıb.

Naxçıvan Müəllimlər İnstitutunun Təbiət və incəsənət fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rövşən Vəliyev "31 mart soyqırımı insanlığa qarşı törədilmiş cinayətdir" mövzusunda çıxış edərək bildirib ki, ötən əsrin ikinci onilliyində ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı 1918-ci ilin mart ayında daha geniş miqyas alıb və amansız olub. Həmin dövrdə Bakıda, Qubada, Şamaxıda, Lənkəranda, Salyanda, Göyçayda və başqa yerlərdə dəhşətli qırğınlar törədilib. Bu illərdə Naxçıvan bölgəsinə yiyələnmək xülyasına düşən daşnaklar yerli əhaliyə qarşı vəhşiliklər törədir, insanları öldürür və bu ərazini azərbaycanlılardan təmizləməyə çalışırdılar. 1918-ci ildə Naxçıvanda ən dəhşətli vəhşiliklər törədən Andranik Ozanyan təkcə Gilançay və Əlincəçay hövzələrində 80-dən artıq kəndi viran qoyub, əhalini amansızlıqla qətlə yetirib. Arxiv materialları, tədqiqat əsərləri, müasirlərin xatirələri təsdiq edir ki, erməni quldur dəstələri 1918-ci ildə Naxçıvanın müxtəlif yerlərində dəhşətli qırğınlar törədiblər. Sovet hakimiyyəti illərində ermənilərin törətdikləri soyqırımlar xalqa unutdurulmağa çalışılıb, həmin dövrdə baş verən faciələrin obyektiv tədqiqinə yasaq qoyulub, faciənin əsl mahiyyəti təhrif olunub, xalqımızın tarixi saxtalaşdırılıb.

Qeyd olunub ki, ermənilər tərəfindən törədilmiş soyqırımı hadisələrinin əsl mahiyyəti ulu öndərimiz Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanında açılıb, ermənilərin Azərbaycan xalqına qarşı apardığı soyqırımı siyasəti dərindən təhlil edilib və ona ilk dəfə siyasi qiymət verilib. Bu fərmana uyğun olaraq, hər il ölkəmizdə martın 31-i "Azərbaycanlıların Soyqırımı Günü" kimi qeyd edilir.

Azərbaycanlıların soyqırımı haqda filmin nümayiş etdirildiyi konfransa professor Akif İmanlı yekun vurub.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyində Soyqırımı Gününə həsr edilən rəsm sərgisi açılıb





***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr edilən rəsm sərgisi açılıb.***

Sərgidə əksəriyyəti gənclərdən ibarət olan 12 rəssamın 20-dən çox əsəri nümayiş etdirilir.

Açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva 1918-ci ilin mart-aprel aylarında Bakı şəhərində, habelə Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ və digər ərazilərdə daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdiyi kütləvi qırğınlar barədə danışıb.

Ülviyyə Həmzəyeva bildirib ki, ermənilər son iki əsrdə öz havadarlarının köməyi ilə xalqımıza qarşı davamlı olaraq soyqırımı siyasəti həyata keçiriblər. Məkrli və qaniçən erməni cəlladlarının 1918-ci ildə respublikamızda soydaşlarımızı qətlə yetirərək etnik təmizləmə siyasəti həyata keçirməsinin əsl mahiyyəti ulu öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanında açılıb.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri vurğulayıb ki, Azərbaycan xalqı, bütün mütərəqqi bəşəriyyət bu amansız qətliamı heç zaman unutmayacaq. Bu faciənin bədii ədəbiyyat, kinofilmlər, musiqi və rəsm əsərlərində əks olunaraq gələcək nəsillərə, eyni zamanda dünya ictimaiyyətinə çatdırılması istiqamətində ardıcıl işlər aparılır.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin baş fond mühafizi, sənətşünas Nizami Alıyev çıxışında deyib ki, 1918-1920-ci illərdə ermənilər tərəfindən Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımı siyasəti qədim və əzəli Azərbaycan torpağı olan Naxçıvandan da yan keçməyib, azğınlaşmış ermənilər burada da qanlı faciələr törədiblər. Onlar Naxçıvan və Şərur-Dərələyəz qəzalarının kəndlərinə basqınlar edib, əhaliyə divan tutub, qadınları, uşaqları, qocaları belə, öldürüb, heç kimə rəhm etməyiblər.

Qeyd olunub ki, belə bir vaxtda Naxçıvan ərazisi Azərbaycan xalqının qəddar düşməni, Türkiyədə hərbi andına xəyanət etdiyinə görə cəzalandırılan Andranik Ozanyanın hücumlarına məruz qalıb. 1918-ci il iyul ayının 24-də Xoy şəhəri yaxınlığında türk qoşunları tərəfindən məğlub edilən Andranik öz qoşunları ilə Culfa bölgəsinin Yaycı kəndi yaxınlığında Arazı keçərək Naxçıvan ərazisinə daxil olub. Həmin vaxt Yaycıda 2 min 500 nəfər qətlə yetirilib. Andranik qərbə doğru irəliləyərək Aza, Düylün, Dizə kəndlərinin əhalisini qılıncdan keçirib. Həmin vaxt ermənilər Gilançay və Əlincəçay vadilərində çoxlu kəndi dağıdıb viran qoyub, əhalinin əksəriyyətini vəhşicəsinə qətlə yetiriblər.

Sonra sərgiyə baxış olub.

Sərgi aprelin 1-dək davam edəcək.

## Şeir müsabiqəsinin qalibləri mükafatlandırılıb



*Martın 30-da Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində muxtar respublikada fəaliyyət göstərən ümumtəhsil müəssisələrinin şagirdləri arasında 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş şeir müsabiqəsi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və Yazıçılar Birliyinin təşkilatçılığı ilə keçirilən müsabiqədə muxtar respublikanın şəhər və rayonlarını təmsil edən məktəblilər öz bacarıqlarını nümayiş etdiriblər.

Müsabiqənin münsiflər heyətinin qərarına əsasən, Şərur rayon Axura kənd tam orta məktəbinin şagirdi Aysu Dünyamalıyeva 1-ci, Naxçıvan şəhər 13 nömrəli tam orta məktəbin şagirdi Rza Babayev 2-ci, Babək rayon Kültəpə kənd tam orta məktəbinin şagirdi Zərifə Səfərəliyeva isə 3-cü yerə layiq görülüblər.

Qaliblərə təşkilatçılar tərəfindən diplom və qiymətli hədiyyələr təqdim olunub.

✍ **Rauf ƏLİYEV**

## Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları məhv edilib

Müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarının məhvetmə komissiyası tərəfindən Babək Rayon Məhkəməsinin inzibati xəta haqqında material üzrə 23 dekabr 2015-ci il tarixli qərarı, Naxçıvan Şəhər Məhkəməsinin 13 yanvar 2016-cı il tarixli qərarı, Culfa Rayon Məhkəməsinin 3 noyabr 2015-ci il tarixli hökmü, Babək Rayon Məhkəməsinin 24 dekabr 2015-ci il tarixli hökmü, Sədərək Rayon Məhkəməsinin 13 yanvar 2016-cı il tarixli hökmü, Culfa Rayon Məhkəməsinin 28 yanvar 2016-cı il tarixli hökmü, Culfa Rayon Məhkəməsinin 24 fevral 2016-cı il tarixli hökmü əsasında məhv edilməsi nəzərdə tutulmuş Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində ayrıca bağlamalarda saxlanılan narkotik vasitələrə, psixotrop maddələrə və onların prekursorlarına baxış keçirilib. Baxış zamanı çəkisi 0,06 qram olan 6 ədəd "Diazepam 10" psixotrop maddəsi, 4 ədəd bağlamada çəkisi 0,303 qram, 34,905 qram, 10,1 qram, 11,65 qram olan həşiş qətranı, 2 ədəd bağlamada 6,84 qram və 0,34 qram olan heroin, 2 ədəd bağlamada 2,31 qram və 65,183 qram tiryək, 2 ədəd bağlamada 71,15 qram və 8,30 qram marixuana naturada üzləşdirilib. Bağlamaların açılmadığı və möhürün yerində olduğu müəyyən edildikdən sonra Naxçıvan Muxtar Respublika Xəstəxanasının tibbi tullantıların ləğvi sistemində yandırılaraq məhv edilib.

**Xəbərlər şöbəsi**

## Elan

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu yeniyetmə, gənc və digər yaş qruplarından olan yaradıcı və həvəskar şəxslər arasında "Ailə dəyərlərimiz film və fotolarda" yaradıcılıq müsabiqəsi elan edir. Müsabiqədə Naxçıvan Muxtar Respublikasında yaşayan telejurnalist və rejissorlar, ali, orta ixtisas və ümumtəhsil müəssisələrinin tələbə və şagirdləri, həvəskar və professional fotoqraflar iştirak edə bilərlər. Müsabiqə aşağıdakı istiqamətlər üzrə keçirilir:

*- ən yaxşı film;*

*- ən yaxşı foto.*

**Müsabiqənin keçirilməsində məqsəd**

Müsabiqənin keçirilməsində məqsəd gənc ailələrdə ailə dəyərlərinin qorunub saxlanılmasını təbliğ etmək, ailə dəyərlərimizi film və fotolara köçürməklə yaşatmaq, film və fotolar vasitəsilə ailə dəyərlərimizə bağlı olan ailələrin adət-ənənələrini ictimaiyyətə, yeniyetmə və gənclərə təqdim etmək, ailə səadətinin açarı kimi ailə dəyərlərini işıqlandırmaq, yeniyetmə və gənclərdə yaradıcılıq qabiliyyətini aşkara çıxarmaq və bədii zövqünü inkişaf etdirməkdir.

**Müsabiqədə iştirak**

Yaradıcılıq qabiliyyəti olan hər bir yeniyetmə, gənc və digər yaş qruplarından olan yaradıcı və həvəskar şəxslər müsabiqədə iştirak edə bilərlər.

**Müsabiqəyə təqdim olunmuş materialların qiymətləndirmə meyarları:**

*- müsabiqənin məqsədinə uyğunluğu və şərtlərinə cavab verməsi;*

*- ideyanın, kompozisiyanın orijinallığı və yaradıcı yanaşma;*

*- işin təsiredici qüvvəyə malik olması və asan qavranılması;*

*- keyfiyyəti.*

**Müsabiqəyə təqdim olunan materiallar aşağıdakı tələblərə cavab verməlidir:**

*- film (5 dəqiqədən artıq olmaq şərti ilə) CD formatda (1 ədəd diskdə);*

*- foto (5 ədəddən artıq olmamaq şərti ilə) CD formatda (1 ədəd diskdə), 20x30 sm və daha böyük ölçülü rəngli və ya ağ-qara kağız formatda.*

**Müsabiqəyə təqdim edilən işlərin mövzuları:**

*- xalqımızın ailə dəyərləri, adət-ənənələri;*

*- ənənəvi ailə münasibətləri və ailə mədəniyyətinin təbliği;*

*- ailənin bütövlüyünü təşkil edən amillər və ailənin uzunömürlü olmasının sirləri;*

*- nümunəvi ailələrin təbliği, yeniyetmə və gənclərin yaşlı nəslə ehtiram və hörməti;*

*- ailə quran tərəflərin onun bütövlüyü üçün əzmkarlığı;*

*- qohum və erkən nikahların, zərərli vərdişlərin yaratdığı fəsadlar;*

*- övladını tək böyüdən nümunəvi valideynin fədakarlığı;*

*- qonaqpərvərlik ənənələrimizin təbliği və sair.*

Müsabiqəyə təqdim olunmuş əsərlər geri qaytarılmır.

**Müsabiqənin keçirilmə vaxtı**

Müsabiqə 2016-cı il aprel ayının 1-dən 2016-cı il sentyabr ayının 30-dək keçiriləcəkdir. Müsabiqədə iştirak etmək istəyən şəxslər hazırladıqları film və ya fotoları, müvafiq anketi şəxsiyyət vəsiqələrinin surəti ilə birlikdə 2016-cı il sentyabr ayının 30-dək Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim etməlidirlər.

Qaliblər 2016-cı ilin oktyabr ayında elan olunacaq və "Ailə dəyərləri festivalı"nda mükafatlandırılacaqlar.

**Müsabiqənin mükafat fondu aşağıdakı kimidir:**

*- birinci yer (1 nəfər) – diplom və pul mükafatı (500 AZN)*

*- ikinci yer (1 nəfər) – diplom və pul mükafatı (300 AZN)*

*- üçüncü yer (1 nəfər) – diplom və pul mükafatı (200 AZN)*

*- həvəsləndirici yer (3 nəfər) – diplom və qiymətli hədiyyə.*

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 42, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi.***

***Əlaqələndirici şəxs: Sahir Rüstəmov, telefon: 545-39-75***

## Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə şagird qəbulu elan edilir

1. Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə 2016/2017-ci tədris ili üçün şagird qəbulu muxtar respublikanın ümumtəhsil məktəblərinin hazırda VI sinfində təhsil alan oğlan şagirdlər arasından müsabiqə yolu ilə seçiləcəkdir.

2. Liseyə sənəd qəbulu 2016-cı ilin aprel ayının 1-dən may ayının 1-dək aşağıdakı mərkəzlərdə aparılacaqdır:

- Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində – Naxçıvan şəhər, Babək, Ordubad, Culfa, Şahbuz rayon ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər.

- Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə – Şərur, Kəngərli, Sədərək rayon ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər.

3. Liseyə qəbul üçün şagirdlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- komissiyanın adına valideyn tərəfindən yazılmış müvafiq ərizə;*

*- təhsil aldıqları məktəbdən arayış;*

*- doğum haqqında şəhadətnamənin (şəxsiyyət vəsiqəsinin) məktəb direktoru tərəfindən təsdiq edilmiş surəti;*

*- iki ədəd 3x4 sm ölçüdə rəngli fotoşəkil.*

4. Liseyə qəbul imtahanları 15-20 may 2016-cı il tarixlərdə test üsulu ilə aparılacaqdır.

***Əlavə məlumat almaq üçün sənəd qəbulu komissiyasına müraciət olunmalıdır.***

***Əlaqə telefonları: 545-02-16; 542-30-76***

***İtmişdir***

Şərur rayonunun Çərçiboğan kənd sakini Zamanov Elçin Dağbəyi oğlunun adına olan 916 A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 244